**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 214 (1342) 19 noyabr - 21 noyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# MÜSTƏQİLLİYİMİZİN GÖZƏL NÜMUNƏSİDİR BU ŞƏHƏR...




**(əvvəli ötən saylarımızda)**

**Şəhərin Heydər Əliyev prospektində, N.Nərimanov, R. Səmədov, S.Gözəlov, Müşfiq, A.Ansuxski küçələrində 16 kommunal yaşayış binasında təmir işləri aparılmış, Ə. Ansuxski və Müşfiq küçəsində yerləşən daha 2 beş mərtəbəli yaşayış evi müasir üslubda üzlənmiş, bərpa olunmuşdur. A.Məmmədov küçəsində 2 №-li evin təmirinə də tezliklə başlanılacaqdır. Heydər Əliyev prospektinin Qazbinə kəndi istiqamətində yol kənarında bardür və tamet daşları ilə səkilər düzəldilmiş, yolun hərəkət hissəsi genişləndirilərək asfaltlaşdırılmış, yol kənarlarına torpaq daşınaraq ağaclar əkilmiş, yaşıllıq salınmışdır.**

Ötən dövr ərzində şəhər küçələrinin təmiri və asfalt-beton örtüyünün bərpası istiqamətində də işlərə başlanmışdır. Belə ki, şəhərin 17 küçəsinin və həmin küçələrin dalanlarının təmiri işləri başa çatdırılmış, 26300 kvadrat metr sahə asfaltlanmış, 4000 kvadratmetr sahədə çala təmiri, 650 poqon metr beton bardür tikintisi aparılmışdır. Şəhər küçələrinin təmiri işləri davam etdirilir.

Balakən-Filizçay avtomobil yolunun 2,1 km hissəsinin asfaltlaşdırılması işinə başlanmış və artıq yolun bir kilometrə yaxın hissəsinə asfalt örtüyü döşənmişdir. Yolun qalan hissəsinin asfaltlaşdırılmasına yaxında başlanılacaqdır.

Səhiyyə və mədəniyyət obyektlərində büdcə vəsaiti hesabına əsaslı və cari təmir işləri aparılmış, Mədəniyyət mərkəzində, tarix-diyarşünaslıq muzeyində, mərkəzi kitabxanada, Hənifə kənd uşaq bağçası körpələr-evində təmir işləri yekunlaşdırılmışdır. Şəhər 2 saylı uşaq bağçası-körpələr evində, RİH-nin inzibati binasında, Z.Əliyeva küçəsi 56 №-li yaşayış evində də cari ildə təmir işləri aparılmışdır. Tülü kənd Folklor evinin və mərkəzi rayon xəstəxanasının təmiri IV rübdə nəzərdə tutulmuşdur ki, tezliklə həmin işlərə də başlanacaqdır.

Rayonun Şərif kəndində 360 şagird yerlik məktəbin tikintisi üçün torpaqayırma sənədləri hazırlanmış, layihələndirmə işləri aparılır. Cari ildə həmin məktəbin tikintisinə başlanılacaqdır.

Hesabat ilində 6 nəfərə sahibkarlıq obyektinin tikintisinə icazə barədə sərəncam verilmiş, 25 yaşayış evinin eskiz layihələri razılaşdırılmış, məlumatlandırma icraatında həll edilmişdir.

Əhalinin və təsərrüfatların sel-sulardan müdafiəsi tədbirləri çərçivəsində 2016-cı ilin 9 ayında Mazımçay və Balakənçay sistemlərinin hər birində 100 poqon metr daş-beton bənd tikilmiş, 67 poqon metr bənd əsaslı, 65 poqon metr bənd isə cari təmir edilmiş, çaylarda və kanallarda məcra təmizləmə işləri görülmüşdür.

Hesabat dövründə əhalinin qaz, su və istiliklə təchizatının yaxşılaşdırılması sahəsində xətlərdə zəruri təmir işləri aparılmış, yaranmış problemlər qısa müddətdə aradan qaldırılmışdır. Payız-qış mövsümünə hazırlıqla əlaqədar mövcud qazanxanaların qaz və işıq xətləri yoxlamadan keçirilmiş, istilik xətləri təmir edilmişdir. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması sahəsində 60 ədəd transformator cari, 29 transformator isə əsaslı təmir edilmiş, yaşayış məntəqələrində 10 yeni transformator məntəqəsi quraşdırılmışdır. 6-10 kvt-luq elektrik verilişi xətləri üzrə 326 dayaq, 0,4 kvt-luq elektrik verilişi xətləri üzrə 669 metal dayaq basdırılmış, 9,9 km məsafədə elektrik xətləri SİP kabellə çəkilmişdir. Əhaliyə verilmiş elektrik enerjisinin dəyəri 78,1 faiz, içməli suyun dəyəri 93,8 faiz, qazın dəyəri 100 faiz ödənilmişdir. Hesabat dövründə rayonun elektrik xətt təsərrüfatının yenidən qurulması və əsaslı təmiri sahəsində xeyli iş görülsə də satılan enerjinin dəyərinin ödənilməsi sahəsində vəziyyət qənaətbəxş sayıla bilməz. Xidmət təşkilatı bu sahədə öz işində dönüş yaratmalıdır.

Həmçinin, telekommunikasiya qovşağı tərəfindən rabitə xidmətinin təkmilləşdirilməsi və keyfiyyətin artırılması, yeni texnologiyaların tətbiqi, internet xidmətinin göstərilməsindəki nöqsanların aradan qaldırılması, yaşayış məntəqələrinin tam telefonlaşdırılması istiqamətində təsirli tədbirlər görülməlidir.

Ötən dövr ərzində pensiya və müavinətlərin vaxtlı-vaxtında əhaliyə ödənilməsi təmin edilmiş, ticarət, iaşə və nəqliyyat xidmətlərinin göstərilməsi diqqətdə saxlanılmışdır.

> **"...Ölkəmiz inkişaf edir. Keçən ili də uğurla başa vurmuşuq. Bu ili də uğurla başa vuracağıq. Baxmayaraq ki, dünyada indi müxtəlif proseslər gedir. Bölgədə iqtisadi vəziyyət o qədər də ürəkaçan deyil. Azərbaycanda heç bir çətinlik gözlənilmir. Yeni sənaye müəssisələri açılacaq, insanlar işlə təmin olunacaqlar. Bizim iqtisadi inkişafımız təmin ediləcək və xalqımızın rifah halı yaxşılaşacaq".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

### *Təhsil, səhiyyə, mədəniyyət...*

Hesabat dövründə ümumtəhsil məktəblərində 11807 nəfər şagird təhsilə cəlb edilmiş, onların təlim- tərbiyəsi ilə 1687 nəfər müəllim məşğul olmuşdur.

Əhaliyə tibbi xidmətlərin göstərilməsi sahəsində ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və tapşırığına əsasən 15 fevral-15 may aylarında rayon əhalisi tibbi müayinədən keçirilmiş, aşkar edilmiş xəstələr dispanser müşahidəsinə götürülmüşdür. Hesabat dövründə uşaqların icbari tibbi müayinəsi işi diqqətə saxlanılmış və 19483 nəfər uşaq müayinədən keçirilmişdir. Dərs ilinin başlanması ilə əlaqədar məktəblərdə müayinələr davam etdirilir və ilin sonuna qədər 1073 uşaq icbari müayinəyə cəlb olunacaqdır.

**Rayon ərazisində sanitar gigiyenik nəzarətdə olan obyektlərdə profilaktik tədbirlər həyata keçirilmiş və bunun nəticəsində əhali arasında xüsusi təhlükəli infeksiyalar qeydə alınmamışdır. Hesabat dövründə profilaktiki peyvəndlər 98,5-99,1% yerinə yetirilmişdir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***